DOI: 10.36719/AEM/2007-2019/49/127-130
**Səbinə Həbib qızı Abbaslı**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
sabinaabbas93@mail.ru

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ZƏRGƏRLİYİNDƏ MİLLİ ƏNƏNƏLƏRİN ƏKSİ

***Açar sözlər:*** *zərgərlik sənəti, ənənəvi, şəbəkə, Azərbaycan, məhsullar, elementlər, texnika.*
***Key words:*** *jewellery art, traditional, filigree, Azerbaijan, products, items, technique*
***Ключевые слова:*** *ювелирное искусство, традиционное, филигрань, Азербайджан, изделия, элементы, техника*

Azərbaycan zərgərliyinin yaranma tarixi çox qədim dövrlərə gedib çıxır. Azərbaycanda bədii metal sənətinin tarixi kökləri metalişləmə sənətinin ilk təşəkkürü ilə üzvi sürətdə bağlı olsa da, onun zinət istehsalı istiqamətində inkişafı nisbətən sonrakı dövrlərə təsadüf edir. Beləliklə, qızıl və gümüşün istehsal xəzinəsinin mənimsənilməsi ilə əlaqədar metalişləmə sənətində zinət istehsalı üzrə baş vermiş ixtisaslaşma nəticəsində müstəqil sənət sahəsi zərgərlik meydana gəlmişdir.

Qədim dövrlərdən bəri zərgərlik istehsalı Azərbaycanda dekorativ-tətbiqi sənətin ən inkişaf etmiş sahələrindən biri olmuşdur. Zərgərlik nəinki geyimin ayrılmaz hissəsini təşkil edir, həm də minilliklər boyu onların növləri ritual-dini xarakter daşıyırdı. Zaman keçdikcə bu ənənə funksiyasını itirərək zərgərlik bədii sənət sahəsində aparıcı mövzu oldu.

Zərgərlik nümunələri bu dövrlərdə dini xarakter daşıyırdı, üzərində təsvir obyektlərinin hər birinin özünəməxsus mənası vardır. Müxtəlif növ günəş, yarpaq, çiçək, badam, aypara, ulduzlar - bəziləri xəstəlikdən qoruyur, digərləri pis gözdən qoruyur və digərləri, qədim inama görə, evə firavanlıq və sağlam nəsil gətirirdi. Zinət əşyaları hələ cavan bir qıza geyinilir, toy xonçasına təqdim edilir, ilk uşağın doğuşuna təqdim edilib və nəsildən-nəslə ötürülürdü.

Azərbaycanda zərgərlik sənətinin xüsusi çiçəklənməsi 19-cu əsrdə baş verdi və bu sənətkarlığın əsas mərkəzləri Bakı, Gəncə, Naxçıvan, Şuşa, Bərdə, Şamaxı olmuşdur.

Zərgərlik məmulatları hazırlamaq üsulları olduqca müxtəlifdir. Onlardan bəziləri daim istifadə olunur və hər zaman təkmilləşdirilir, bəziləri isə zaman-zaman müasir dəbdən asılı olaraq istifadə olunurdu.

İndiki dövrdə zərgərlər mürəkkəb şəbəkə texnikasına xüsusi hörmətlə yanaşırlar. Hətta qədim Misirdə də insanlar şəbəkə texnikasından istifadə edərək hazırlanmış zərgərlik əşyaları istifadə edərdilər. Azərbaycanda ticarət yollarının inkişafı ilə Şərqdə geniş yayılmış texnika "şəbəkə" adı almışdı. Şəbəkə zərgərlikdə nazik dolama simdən düzəldilmiş rəsmə və yaxud naxışlara deyilir. Əsasən şəbəkə texnikası 2 növə bölünür. Birincisində məhsulun yaradılması üçün əsas yaradılır, ikincisində isə məhsulun səthi kiçik naxışlarla örtülür.

Bu gün, əsrlər əvvəl olduğu kimi, şəbəkə əsasən gümüşdən, bəzən də qızıldan hazırlanır, çünki gümüş, qızıl kimi çox yumşaq və çevik bir metaldır, onlardan uzadılmış tellər düzəltmək asandır. Kiçik naxışlar üçün tellər hamar və ya spiral və ya iplə bükülə bilər. Çox nadir hallarda, mis, nikel, latun kimi şəbəkə üçün digər metallardan istifadə olunur.

Əgər məhsul qiymətli və ya yarı qiymətli daşlarla bəzədilibsə, o zaman "yuva" adlanan yuva şəklində xüsusi güclü çıxıntılı çərçivəyə yerləşdirilib. Bu üsul antik dövrdən müasir ustalara da məlumdur. Yeri gəlmişkən, Azərbaycanda ən populyar daşlar yaqut, zümrüd, firuzə, eləcə də müxtəlif bəzək daşları idi. Həm antik dövrdə, həm də müasirlikdə bir insanın nə qədər zəngin olduğu və cəmiyyətdəki statusunun nə qədər yüksək olduğu, bəzəklərinin daha yaxşı və zəngin olduğu və daha bahalı olduğu aydın olur.

Azərbaycanda şəbəkə texnikası orta əsrlərdə ən yüksək inkişaf səviyyəsinə çatdı və ən yaxşı nümunələri Ermitaj, Luvr və Topkapi kimi muzeylərdə saxlanılır. 18-ci əsrdə bu texnika Azərbaycanda xüsusi populyarlıq qazanmış, lakin müasir dövrdə aktuallığını bir qədər itirdi. Buna baxmayaraq, bu gün Azərbaycanda bu texnikanı canlandıran və xalqımızın adət-ənənələrini qoruyub saxlayan əl işləri zərgərlik əşyaları yaradan sənətkarlar var.

Ən çox yayılmış zərgərlik formaları badam, yarpaq, pialə-zəng, dairəvi səbət. Müasir zərgərlər tərəfindən daha çox səbət forması istifadə olunur və bu forma əsasən sırğa istehsalında geniş yer tutur. Dairəvi formada olan bu sırğalar şəbəkə texnikasında işlənilir. Şəbəkə texnikası ilə bu dairəvi formaların içərisində müxtəlif növ stilizə edilmiş nəbati və heyvan təsvirləri əksini tapmışdır. Heyvan təsvirləri arasında ən çox qoç formaları diqqət çəkir. Müxtəlif millətlər arasında bu formanın mənası əhəmiyyətli dərəcədə dəyişir. Əsasən

qoçun simasında bərəkət və qurbanlıq simvolu birləşdirilmişdir. Qoç təvazökarlığı, günahsızlığı, barışığı, səbri təmsil edir. Müasir zinət əşyalarında əsasən qoç buynuzu forması ilə rastlaşırıq.

Hələ keçən əsrdən başlayaraq zərgərlik sənətində xüsusilə də yayılmış ornament butadır. Buta yalnız bir bitki ləçəyi deyil, onun bir cox mənası vardır. Zərdüşt təliminə əsasən, buta Günəşin, müqəddəs odun rəmzi, insanı bəd nəzərdən, xəstəliklərdən qoruyan pak alov dilinin stilizə olunmuş təsviridir. Buta, Azərbaycan milli ornamentinin səciyyəvi bir hissəsidir, şərq xalçaları və parçalarında, habelə yerli zərgərlik əsərlərində geniş yer tutur.

Azərbaycanın milli ənənələrini yaşadan gənc zərgərlər arasında xüsusilə İslam Həzrətovu qeyd etmək yerinə düşər. Milli ənənələrlə müasirliyi sintez edən zərgər bənzərsiz zərgərlik nümunələri yaratmışdır. İşlərində əsasən gümüşdən istifadə edən zərgər, onları qiymətli daş-qaşlarla bəzədir.

Gənc zərgərin işləri arasında 2 butanın əks olunduğu kulonu qeyd etmək olar. Gümüşdən hazırlanmış bu kulon şəbəkə texnikasında işlənilib. İki butanın biri "başı üstə", digəri isə "başı aşağı" təsvir olunub. Xeyir və şəri ifadə edən bu 2 buta elementi birləşərək dairəvi forma əmələ gətirmişdir. Həmin bu dairəvi formanın içinə zərgər səkkiz ləçəkli çiçək elementi yerləşdirmişdir. Kulonun alt hissəsində 3 damcı elementi yer tutur.

Müasir zərgərlik sənətində geniş yer tutan Azərbaycan xalçaları və naxışları əsasında yaradılan zərgərlik nümunələridir. Bu nümunələrə aitdir üzüklər, sırğalar, bilərziklər, kulonlar və s. Həmin zərgərlik nümunələri arasında İslam Həzrətovun Azərbaycanın xalq rəssamı, xalçaşünas Lətif Kərimovun 1988-ci ildə "Ornamental xalça" eskizindəki naxışlardan və "Əcəmi" xalçasından ilhamlanaraq yaratdığı sırğaları xüsusilə qeyd etmək lazımdır. Hər ikisi gümüşdən, şəbəkə və minakarlıq texnikası ilə hazırlanmışdır. Zərgər Əcəmi kolleksiyasına aid dəstin bir neçə növünü işləmiş və hər birini müxtəlif rənglərdə olan mina ilə doldurmuşdu. Əsasən bu kolleksiyada qara, göy və qırmızı rənglər üstünlük təşkil edir.

Zərgərin Azərbaycan xalçaçılıq sənəti əsasında yaratdığı kolleksiyasında xüsusən də Şirvan xalçaçılıq məktəbinin ən parlaq nümunəsi sayılan "Ərciman" xalçasındakı "Sünbül" naxışından ilhamlanaraq hazırladığı dəst maraqlı kompozisiya həlli ilə seçilir. Əsasən minakarlıq texnikasında işlənilən bu zərgərlik işində yaşıl rəngli minadan istifadə olunmuş və kompozisiyadaki arakəsmələr şəbəkə ilə doldurulmuşdur.

İslam Həzrətovdan başqa zərgərlik işlərində milli ənənələri qoruyub saxlayan digər gənc və istedadlı zərgərlərdən biri olan Emil Almazovun hall hazırda Londonun Viktoriya və Albert muzeyində saxlanılan "Şeyx Səfi" xalçası və Təbriz xalçaçılıq məktəbinin digər xalçalarında rast gəlinən "Ləçək Turunc" naxışından ilhamlanaraq yaratdığı sırğalar insanı valeh edir. Gümüşdən hazırlanmış bu sırğalar şəbəkə texnikasında işlənilib və bəzi hissələri üçün zərgər minakarlıq texnikasından istifadə edib. Yaratdığı zərgərlik nümunəsini Emil Almazov qırmızı və qara rəngli mina ilə doldurmuşdu.

Minakarlıq texnikası müasir zərgərliyin incəliyi və gözəlliyi ilə cəlb edən digər istiqamətidir. Bu texnikayla bəzəklərin rənglənə biləcəyi rəng və çalarların müxtəlifliyi, özünəməxsus şah əsərlər yaratmağa imkan verir. Mina ilə işləmək texniki cəhətdən çətindir, buna görə də mina ilə zərgərlik əşyaları həmişə yüksək qiymətləndirilir. Azərbaycan minakarlığında ən çox bənövşəyi, göy, qırmızı, qara rəngli minadan istifadə olunur.

Müasir zərgərlikdə xüsusi maraq doğuran texnikalardan biri də mozaika texnikasıdır. Mozaika eyni və ya müxtəlif rənglərdə şüşə, daş hissəciklərdən və plitələrdən hazırlanmış incəsənət nümunəsidir. İlk mozaika işləri hələ eramızdan əvvəl 4-cü minilliyin 2-ci yarısında, Mesopotamiyada formalaşan Şumer dövlətində yaranmışdır.

Yaratdığı bir çox zərgərlik işlərində mozaikadan ilhamlanan Emil Almazovun gümüşdən yaratdığı dəst, zəifliyi ilə diqqəti cəlb edir. İncə və uzun formada hazırladığı əsərdə bəzək elementi olaraq zərgər eboni sədəfdən kəsilmiş hissəciklərdən istifadə etmişdir.

Öz dəsti-xətti ilə fərqlənən zərgər mozaika texnikasında digər bir çox zərgərlik nümunələri də yaratmışdır. Bunların arasında dairəvi formada işlədiyi sırğaları, ay formasındakı kulonu və daş qoç fiqurlarından ilhamlanaraq yaratdığı qol düyməsini qeyd etmək lazımdır. Hər biri gümüşdən düzəldilmiş bu zərgərlik əsərləri öz incəliyi ilə seçilir.

Milli ənənələri qoruyub saxlayıb və bu gün də yaşadan Azərbaycan zərgərlik sənətində quş formalarına da tez-tez rast gəlmək mümkündür. Bunların arasında əsasən tovuz quşu və tovuz quşunun lələkləri çox məşhurdur. Tovuz quşu Hindistandan gələn dekorativ quşdur, burada günəşin simvolu hesab olunur, o həm də ölməzliyin, uzunömürlüyün və sevginin simvoludur. İslam ənənəsində tovuz quşu kosmosun simvolu, İranda isə Həyat Ağacının hər iki tərəfində dayanan tovuz quşu, insanın ikili xarakterini ifadə edirdi.

Zərgərlik işində tovuz quşu obrazına müraciət edən istedadlı zərgər Samir Misirov gümüşdən hazırladığı dəst üçün şəbəkə texnikasından istifadə etmişdir. Çox mürəkkəb kompozisiya həllinə malik zərgərlik əsəri, bir çox xırda detaylardan ibarətdir. Bu xırdalıqları zərgər əsasən tovuz quşu obrazının lələklərində göstərib

və əsasən dairə və damcı formalarından istifadə olunub. Dairə formasından fərqli olaraq damcı formasında şəbəkə texnikası davam etdirilib.

Şəbəkə texnikası ilə bərabər zərgərlik nümunəsində az da olsa döymə texnikasına da rast gəlmək mümkündür. Zərgərlikdə döymə üsulu ən qədim üsullardan hesab olunur. Döymə üsulu Azərbaycanda əsasən 8-ci əsrdə məşhur olmuşdur və bu üsulla zinət əşyaları, silah və məişət əşyaları hazırlanırdı. Digər texniki üsullara nisbətən xeyli sadə olan döymə üsulu, sənətkardan iti göz və böyük ustalıq tələb edir. Əsasən çəkic və ucu nazik alətlərlə yaradılır.

Azərbaycan zərgərlik nümunələri arasında memarlıqda istifadə olunan bəzək elementlərinə də rast gəlmək olar. Həmin memarlıq incilərindən üzərində ecazkar və təkrarolunmaz naxışların əks olunduğu Möminə Xatun türbəsini qeyd etmək lazımdır. Bu memarlıq nümunəsi 12-ci əsrdə görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvani tərəfindən Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə inşa edilmişdir.

Öz zərgərlik əsərlərində Emil Almazov türbənin giriş qapısı üzərində yer almış naxışa müraciət etmişdir. Bəzən bu naxış tək formada, bəzən də bir neçə eyni element üst-üstə yerləşdirilmiş formada əks olunmuşdur. Zərgərin yaratdığı gümüş dəstdə bu səkkizguşəli ulduz naxışı tək formada təsvir olunub. Dəst sırğa və üzükdən ibarətdir. Şəbəkə və minakarlıq texnikasında işlənilən bu zərgərlik nümunəsində bənövşəyi rəngli minadan istifadə olunub. Şəbəkə texnikası ilə zərgər ulduz elementinin içindəki dairəvi formanı işləmişdir. Bu dairəvi formanın içində yerləşən bir, digər kiçik dairədə isə təkrar minakarlıq texnikası davam etdirilib.

İstedadlı zərgər Emil Almazovun yaratdığı digər zərgərlik nümunəsində isə altıguşəli ulduz naxışından istifadə olunub. 5 ədəd naxışı üst-üstə yerləşdirmiş olan zərgər bu dəfə sadəcə minakarlıq texnikasından istifadə etmiş və naxışların içini qara rəngli mina ilə doldurmuşdur. Sadə kompozisiya həllinə malik olan bu zinət əşyası, buna baxmayaraq öz incəliyi ilə seçilir.

Müasir zərgərlik nümunələri arasında əlbəttə ki, nar formasına da xüsusi yer verilib. Azərbaycanın rəmzi olan nar, bərəkət və zənginliyin rəmzidir. Bu onunla bağlıdır ki, nar ağacları il boyu meyvələrlə asılır. Qədim zamanlardan bəri nar cənnət meyvəsi hesab olunur. Onun haqda kitablar yazılır, mahnılar bəstələnir, şeirlər yazılır. Nar xüsusilə Azərbaycan incəsənətində, həmçinin zərgərliyində də geniş yayılmışdır. Bu formada Azərbaycan zərgərliyində müxtəlif növ zinət əşyaları yaradılır.

Zərgərlik sənətində digər geniş yayılmış forma Həyat Ağacıdır. Dünya ornamentindəki ifadə şəkilləri arasında Həyat Ağacının bir çox fərqli modifikasiyası var. Stilizə edilmiş təsviri istər hər iki tərəfində simmetrik dayanan Ağacın qoruyucuları ilə əhatə olunan, istərsə də dekorativ heraldik kompozisiya formasında təsvir oluna bilər, hansında ki, Ağac artıq yoxdu, ancaq onun simvolu var. Həyat Ağacının dünyanın oxu kimi simvollaşması tunc dövrünə təsadüf edir. Ağacın görüntüsünün mifoloji təsvirləri həyat və ölüm ağacı, məhsuldarlıq, kainatın mərkəzi, qalxma, səmavi ağac kimi xüsusi təriflərə sahibdir.

Ornamentə münasibət həmişə birmənalı deyildi, ya tanınıb və peşəkar sənətdə fəal istifadə olunur, ya da mübahisəsiz olaraq rədd edilirdi. Müasir dövrdə rəssamlar yenidən bu ornamentə qayıdır. Azərbaycan zərgərlik sənətində Həyat Ağacı forması əsasən kulonlarda əksini tapıb. Əsasən gümüşdən düzəldilmiş bu kulonlar, xüsusilə də öz sadə və zərif görünüşü ilə diqqət çəkir.

İndiki dövrdə öz məhsullarında ənənəvi naxışlardan və texnikalardan istifadə edən, onları müasir moda ilə birləşdirən zərgərlik brendləri heç də az deyil. Onların arasında xalq sənətinin naxışları və simvollarından istifadə edən ilk zərgərlik brendi olan "Resm" brendini xüsusilə vurğulamaq lazımdır. Rəsm məmulatları Azərbaycanın mədəniyyəti, ənənələri və hər şeydən qabaq, ruhu ilə bir əlaqə yaradır. Brendin müəllifinin ilham mənbəyi Azərbaycan və digər Şərq xalçalarının rəmzləri və naxışlarıdır. Xalçalarda istifadə olunan zəngin rəng palitrasını canlandıran bu əl işləri xalça naxış kompozisiyalarının mənasını açaraq onların gözəlliyini zərgərliyə xas olan üslubda ifadə edirlər. Hər bir zərgərlik məmulatı yüksək əyarlı qızıl və gümüş əsasında hazırlanır. Brendin əsas meyllərindən biri minadan istifadə olunaraq yaradılan və incəliyi və gözəlliyi ilə diqqət çəkən zərgərlik nümunələridir.

Etnik naxışlardan ilhamlanan bir digər milli zərgərlik brendi "Butalı" brendidir. "Butalı"Azərbaycan zərgərlik sənətinin ənənələrini ən yüksək səviyyədə qoruyan, təbliğ edən və yaşadan milli brenddir. "Butalı" milli brendi öz fəaliyyəti ilə qədim ənənələrin qoruyucusu və davamçısısı kimi Azərbaycanın böyük zərgərlik irsini davam etdirməyə çalışır. "Butalı" brendi sadəcə zərgərlik sənətini inkişaf etdirmir, eyni zamanda onu müasir qadınlar üçün əlçatan edir. "Butalı" ilə hər bir qadın milli ənənələrə toxunaraq, həqiqətən doğma Azərbaycan torpağının gücünü və bəzək əşyalarının möcüzəli simvolikasını hiss edə bilər.

Muzeylərdə saxlanılan milli zərgərlik nümunələrindən ilhamlanmaqla yanaşı, müəyyən məhsulların hazırlanma texnikasını, bölgələri gəzmək və arxiv sənədlərini öyrənməklə Butalı brendi, müasir dəbin tələblərinə cavab verən etnik naxışlarla milli üslubda işlənilən zinət əşyalarına əsaslanır. Çox vaxt brend zərgərlik nümunələrini şəbəkə texnikasından istifadə edərək yaradır.

Müasir zərgərlik sənətində yaratdığı zərgərlik nümunələri ilə diqqət çəkən zərgərlik brendlərindən biri də "Shebeke Jewellery" brendidir. Shebeke Jewellery zərgərliyinin əsasını Azərbaycan tarixi və mədəniyyətinə olan sevgi təşkil edir. Brendin estetikası Azərbaycan xalqının qədim və zəngin mədəni irsinin təsiri altında formalaşmışdır. Brendin DNA-sına tarix, əfsanələr, nağıllar, musiqi, memarlıq və Azərbaycan mədəniyyətinə xas olan miniatürlər daxildir.

Zərgərlik məhsullarının əksəriyyəti şəbəkə texnikasından istifadə etməklə hazırlanır. Zinyət əşyaları yaradılarkən əsasən yüksək əyarlı gümüşdən istifadə olunur, eksklüziv Shebeke Jewellery dəsti isə qızıldan hazırlanır. Əlbəttə ki qiymətli və yarı qiymətli daşlardan da istifadə olunur.

Shebeke Jewellery, milli adət-ənənələrə müraciət edərək onları yeni formalara çevirməyə, yəni qədim rəmzləri və təsvirləri yaradıcı şəkildə şərh etməyə çalışır. Brend şəbəkəni dəri, ağac, polimer gil ilə birləşdirərək bir yeniliyə imza atmışdır. Shebeke Jewellery zərgərlik sənətində qədim ənənələrin müasir, qeyri-standart şərhini sevən insanlar üçün yaradılmışdır.

**Ədəbiyyat:**

1. Л. Раджабли. "Техника филиграни в современном ювелирном искусстве Азербайджана" // Elmi iş №3(4), 2019.
2. Л. А. Кинёва. "История орнамента и стиля". Екатеринбург, 2017.
3. Э. Ахундов. "Shebeke Jewellery". 2017. www.themost.az.
4. A. Qəniyeva. "Müasir qadınlar üçün milli brend – Butalı". 2019. www.fins.az.
5. "Национальный ювелирный бренд Butali – хранитель и продолжатель древних традиций". 2017. www.1news.az.
6. www.resm.com.

**Reflection of national traditions in Azerbaijani jewelry in the years of independence**

**Resume**

Jewelry art is one of the dominant areas of decorative art in Azerbaijan. The technique of filigree in jewelry is considered the most complicated and is a very rare technique of subtle patterns inherent in the culture of not every region. The technique gained particular popularity with us in the 18th, but in the modern world it has lost its relevance. Today in Azerbaijan there are designers who revive this technique and create handmade jewelry that preserves the traditions of our people.

**Отражение национальных традиций в азербайджанских украшениях в годы независимости**

**Резюме**

Ювелирное искусство является одной из главенствующих областей декоративно-прикладного искусства Азербайджана. Техника филиграни в ювелирном искусстве считается наисложнейшей и является очень редкой техникой тонких узоров, присущей культуре отнюдь не каждого региона. Особую популярность у нас техника приобрела в XVIII, но в современном мире утеряла свою актуальность. Сегодня же в Азербайджане есть дизайнеры, которые возрождают эту технику и создают ювелирные изделия ручной работы, хранящие традиции нашего народа.

**Rəyçi : dos. S.Q. Sadıqov**